**TƏRANƏ RÜSTƏMOVA,**
*AMEA Mərkəzi Elmi Kitabxanasının baş biblioqrafı,*
*AMEA M.Füzuli ad. Əlyazmalar İnstitutunun doktorantı,*
*terane.mirzeyeva.rustemova@gmail.com*

# İNNOVATİV MÜSTƏVİDƏ AZƏRBAYCAN BİBLİOQRAFİYAŞÜNASLIĞI: REALLIQLAR VƏ PERSPEKTİVLƏR

**Xülasə:** *Məqalədə Azərbaycan biblioqrafiyaşünaslığının inkişaf problemlərindən bəhs edilir. Eyni zamanda qarşıya çıxan problemlərin həlli yolları göstərilmişdir.*
**Açar sözlər:** *Biblioqrafiya, biblioqrafiyaşünaslıq, biblioqrafik fəaliyyət, kitabxana işi, innovasiya*

Elmin inkişaf istiqamətləri içərisində müxtəlif elm sahələrinin həm disiplinar, həm də multidisiplinar şəkildə şaxələnməsi elmi fəaliyyətin metodoloji və konseptual səciyyələnməsinə müsbət təsirini göstərir. Azərbaycan biblioqrafiyaşünaslığının inkisaf mərhələlərinə nəzər saldıqda müəyyən problemlərin olduğu ortaya çıxır.

Xüsusilə, multidisplinar istiqamətdə yeniliklərə cəhd edilsə də problemin kökündən həll olunmaması nöqsan olaraq qalmaqdadır. Baxmayaraq ki, XX əsrin sonları XXI əsrin əvvəllərindən etibarən Azərbaycan kitabxana işi sistemində xeyli yeniliklər və dəyişiklilər edilmişdir. Məsələn, kitabxanalarda elektron informasiya bazasının formalaşması, avtomatlaşdırılmış informasiya axtarış sistemlərinin yaradılması, özəl kitabxanaların və pullu xidmətin yaranması vəya cəhd edilməsi, beynəlxalq elektron məlumat bazalarına girişin təmin edilməsi və s.

Lakin, kitabxana fondlarının zənginləşdirilməsinə diqqət qədər, biblioqrafiyaşünaslığın problemlərinin çözülməsi ləng gedir. Bu da biblioqrafiya sahəsindəki tarazlığın pozulamsına səbəb olur. Azərbaycan biblioqrafiyaşünaslığında və biblioqrafik fəaliyyətdəki həlli vacib problemər əsasən aşağıdakılardır:

- Ölkə üzrə vahid biblioqrafik standartın tətbiq edilməməsi;
- Eyni mövzu və şəxslər haqqında çoxsaylı təkrar biblioqrafik nəşlərin hazırlanması;
- Biblioqrafik vəsaitlərin hazırlanmasında hər kitabxananın öz tərtib qaydasının olması və qaydanın şəxslərə görə dəyişməsi;

- Biblioqrafiyaşünaslıq elminə dair elmi tədqiqatların yetərsay olmaması;
- Mövzu ilə əlaqədar konfrans, seminar, dəyirmi masa, konqreslərin qənaətbəxş olmaması;
- Elmi-biblioqrafik tədqiqatların geniş miqyasda aparılması üçün xarici ölkə kitabxanalarına elmi ezamiyyələrin olmaması (məsələn, Saltıkov-Şedrin ad. Moskva Dövlət Kitabxanası (Rusiya), Tbilisi Dövlət Kitabxanası (Gürcüstan), Tehran və Təbriz Milli Kitabxanaları (İran) və s. ölkə kitabxanalarında mövcud olan Azərbaycan kitabları, qiymətli və nadir sənədlər haqqında müxtəlif mövzularda tədqiqatların aparılaraq onların elmi-monoqrafik biblioqrafiyalarının hazırlanması);
- İstinad biblioqrafiyalarının hazırlanmaması;
- Elektron biblioqrafiyaların tərtib edilməməsi;
- Profesional və peşəkar biblioqrafların qeyri-profildə işlədilməsi və adı çəkilən sahəyə qeyri-ixtisas kadrların cəlb edilməsi;
- Vahid Biblioqrafik Mərkəzin vəya Azərbaycan Milli Biblioqrafiya Mərkəzinin yaradılmaması;
- Azərbaycan Bioqrafiya Cəmiyyətinin yaradılmaması;
- Azərbaycan Bioqraf və Biblioqraflar Dərnəyinin olmaması;
- Ölkə üzrə nəşr edilən bütün sənəd kütləsini tam əhatə edən Mərkəzin olmaması (baxmayaraq ki, vaxtilə Kitab Palatası adlı qurum bu işin öhdəsindən gəlirdi və hazırda Axundov adına Milli Kitabxanada fəaliyyətini qismən bərpa etmiş olsa da fəaliyyəti (obyektiv-subyektiv səbəblərdən dolayı) qənaətbəxş deyildir);
- Beynəlxalq təcrübə mübadiləsinin ləngiməsi;
- Səriştəsiz mütəxəsislərin bu sahədə çalışması və s.

Sadalanan və qarşıda duran digər problemlərin həlli yolları içərisində ən önəmlisi biblioqrafiyaşünaslıq elminə həvəs göstərən və öz peşəsinə vurğun olan, onun bütün elmi aspektlərini mükəmməl bilən kadrların bu işə cəlb edilməsi, eyni zamanda öz müsbət təsdiqini tapmış milli və beynəlxalq təcrübənin tətbiq edilməsidir.

Azərbaycan biblioqrafiyaşünaslığının inkişaf perspektivləri baxımından innovativ müstəvidə yüksəlməsi zamanla dünya biblioqrafiya elminə də töhfəsini verəcəkdir. Belə ki, beynəlxalq təcrübə və mübadilə əsasında multidisplinar biblioqrafik informasiya resurslarının (məsələn, biblioqrafik istinad və elektron biblioqrafik mənbələrin tərtibi) hazırlanması buna zəmin yaradacaqdır.

Həmçinin Azərbaycan biblioqraflarının nəzəri ideya və təcrübi nailiyyətlərinə istnadlar ediləcəkdir. Məsələn, gələcəkdə bir vəya bir neçə xarici ölkə biblioqraf və bioqrafları ilə müştərək universal xarakterli biblioqrafik resurslar tərtib etmək mümkündür. Hələ ki, dünya biblioqrafiya təcrübəsində bu tətbiq edilməmişdir. İlk olaraq bu ideyanın Azərbaycan biblioqraflarının innovativ

ideya olaraq beynəlxalq layihə formasında həyata keçirərək bir ilkə imza ataraq uğur qazanmalarına səbəb ola bilər. "Dünya biblioqrafiyası" seriyası adı altında bu cür biblioqrafik vəsaitlərin nəşrini reallaşdırmaq olar. Məsələn, "Azərbaycan - Türkiyə - İran. Tarix elmləri bütünlükdə (Vətən tarixi. Arxeologiya. Etnoqrafiya). Biblioqrafik resurslar göstəricisi" və ya "İqtisadiyyat elmləri bütünlükdə. (Vətən iqtisadiyyatı. Sənaye. Kənd Təssərrüfatı). Biblioqrafik resurslar göstəricisi" adlı biblioqrafik vəsaiti hazırlamaq üçün hər ölkə biblioqrafları öz ölkələrində adları çəkilən digər ölkənin mövzu ilə əlaqədar bütün ilkin və ikinci dərəcəli mənbərlərin biblioqrafik monoqrafiyasını (ənənəvi və elektron qaydada) tərtib edib həmin ölkəyə təqdim etməlidirlər. Həmin ölkələr də analoji tərtibi Azərbaycan üçün göndərməlidir. Beləliklə, nəticədə hər 3 ölkə kitabxana və informasiya mərkəzlərində ümumilikdə tarixlə vəya iqtisadiyyatla bağlı bütün sənəd kütləsi haqqında elmi biblioqrafik qaydada məlumat əldə edərək faydalanmaq mümkün olacaqdır. Bu da vaxt itkisinin qarşısını almaqla, informasiya tələbatçıları üçün geniş biblioqrafik imkanlar açacaqdır.

Eyni zamanda dünyaca mötəbər Kitabxana və Biblioqrafiya Təşkilatlarının (İFLA, YUNESKO-nun Elm və Təhsil Bölməsi və s.) beynəlxalq konfrans və digər tədbirlərinin Azərbaycanda keçirilməsini təklif etmək. Bununla həm milli biblioqraflarımızın maadiyyat və s. səbəblərlə xarici ölkələrlə gedə bilməmələrinin qarşısı qismən aradan qalxacaq, Azərbaycanda həmin tədbirlərdə iştirak və çıxış etmələrinə təkan veriləcək, həm də xarici kitabxançı-biblioqraf-bioqraf mütəxəssislərin Azərbaycan kitabxana və biblioqrafiya informasiya mühüti haqqında real məlumat əldə etmək imkanları olacaqdır.

Nəticə etibarilə qeyd etdiyimiz aktual məsələlər Azərbaycan biblioqrafiyaşünaslığının real problemlərinin həll edilərək perspektiv innovasiyasına səbəb olacaqdır.

## Азербайджанская библиографоведение в области инноваций: реалии и перспективы

**Резюме:** *В статье рассматривается проблемы развития азербайджанской библиографии. В то же время показаны пути решения проблем.*
**Ключевые слова:** *Библиография, библиографоведение, библиографическая деятельность, библиотечная работа, инновация*

## Azerbaijan biblioqraphy studies in the field of innovations: realities and perspectives

**Abstract:** *The article deals with the problems of the development of the Azerbaijani bibliography. At the same time are shown ways of solving problems.*
**Key words:** *Bibliography, bibliography studies, bibliographic activity, library work, innovation*